*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

Bakı, 23.02.2021

**Listinqlə bağlı yeniliklər, listinqin üstünlükləri və kapital bazarının inkişafı mövzusunda videokonfrans keçirilmişdir.**

23 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı və Bakı Fond Birjasının (BFB) birgə təşkilatçılığı ilə beynəlxalq maliyyə təşkilatları, konsaltinq, hüquq və audit şirkətləri üçün "Bakı Fond Birjasında listinqlə bağlı yeniliklər, listinqin üstünlükləri və kapital bazarının inkişafı üzrə görülən işlər" mövzusunda videokonfrans keçirilmişdir.

Videokonfransın keçirilməsində məqsəd BFB-də listinqin stimullaşdırılması və kapital bazarının inkişaf etdirilməsi üzrə həyata keçirilən tədbirlərin, o cümlədən listinqlə bağlı yeniliklərin biznes ictimaiyyətinə çatdırılmasıdır. BFB-nin İdarə Heyətinin Sədri v.m.i.e Eldar Abdullayev çıxış nitqində Azərbaycanda biznes sektoru, eləcə də maliyyə bazarlarının dayanıqlı inkişafı üçün qiymətli kağızlar bazarının və listinqin önəmini vurğulamış, listinqin üstünlükəri barədə konfrans iştirakçılarına məlumat vermişdir.

Daha sonra Mərkəzi Bankın və BFB-nin ekspertləri tərəfindən 2020-ci ildə listinqin stimullaşdırılması və kapital bazarlarının inkişafı üçün həyata keçirilmiş layihələr, Listinq Məsləhət Proqramı çərçivəsində emitentlər üçün təqdim olunan xidmətlər və gələcəkdə bu bazarın inkişafı üçün görülməsi planlaşdırılan tədbirlər haqqında təqdimat formatında məlumat verildi. Qeyd edildi ki, fond birjasında listinqin təşviq edilməsi, şirkətlərin və investorların qiymətli kağız bazarına çıxışının asanlaşdırılması, eləcə də pandemiyanın özəl sektora mənfi təsirlərinin minimallaşdırması məqsədilə stimullaşdırıcı tarif rejimi yaradılmış, istiqraz emissiyası üzrə tələblər yumşaldılmışdır. Fond birjasında listinq tələbləri beynəlxalq standartlara uyğunlaşdırılaraq qeyri-aktiv şirkətlər listinqdən kənarlaşdırılmış, eyni zamanda kapital bazarı iştirakçılarına requlyativ tətillər və güzəştlər verilmişdir.

İnteraktiv formatda təşkil edilmiş videokonfransda 20-dən artıq qurum iştirak etmiş, görüşün sonunda iştirakçıların kapital bazarları və listinq ilə bağlı sualları cavablandırılmışdır.

Əlavə olaraq qeyd etmək istərdik ki, listinqlə bağlı məlumat almaq üçün BFB-nin internet səhifəsində listinq bölməsinə daxil ola və ya business@bse.az elektron ünvanına müraciət edə bilərsiniz.